Əziz Milena,

Mən sənin məktubunu oxudum və fərqli hisslər yaşadım. Bu hisslər içərisində həm 16 yaşında bir gəncin bu qədər sülhpərvər olduğuna sevinmək, digər tərəfdənsə sənin xalqının və millətinin qüdrətini tərif etməyində heyifsilənmək. İndi sənə bu məktubda hislərimi izah edəcəm. Milena mən Bakıda yaşayıram, Azərbaycanlıyam. Amma əgər mənə kimlik olaraq bir status vermək istəsən, mən məcburi köçkünəm. Zamanında ailəm öz torpaqlarından məcburi şəkildə didərgin salınıb. Bu hadisənin heç bir səbəbi haqqında danışmaq istəmirəm. Çünki mən sənlə bu statusdan, və sənin erməni xalqına mənsub olmağından qabaq hər ikimizin Tanrının yaratdığı insan olaraq sülhdən və insani dəyərlərdən danışmağımızı istəyirəm. Məktubların içərisində xüsusilə sənin yazdığın məktub məni cəlb etdi. Çünki 16 yaşında sülh arzu etməyin, gələcəkdə heç bir fərq qoymadan yaralı hər bir kəsə kömək etmək istəyin məni çox sevindirdi. Səndən xahişim odur ki, əgər sülh arzusunda olursansa bunu tam qəlbdən hiss et. Sülh hiss etdikdə sadəcə Milena ol, erməni millətinin bir nümayəndəsi yox. Mən də bunu edirəm. Hər ikimizin ölkəsi, bütün dünya üçün sülh arzu edəndə sadəcə sülhü görmək istəyən və bunun uğrunda insanlara kömək etmək istəyən gənc bir qız oluram. Bu zaman artıq bütün milli kimlik, yaşanan hadisələri unutmağa cəhd edirəm. Çox sevindirici haldır ki, eyni mavi səmanın altında yaşayan sənlə mən hər iki tərəf üçün hətta bütün insanlar üçün xoşbəxt və sülh içərisində həyat arzu edirik. Gəl hər ikimiz də sadəcə biz olaraq sən və mən olaraq sülhə cəhd edək. Bütün insani dəyərlər, ədalət, humanizm yaradılan eqolar, milli kimlik, kin və nifrətdən önəmlidir. Bu məktubu tam səmimiyyətimlə yazır və ikimizin də daim bu sülh dəyərini qəlbimizdə saxlamağımızı diləyirəm. Bir şeyi unutmamağını xahiş edirəm. Sən mənim üçün , erməni milliyyətindən olan Milena deyilsən. Sən mənim üçün 16 yaşında sülhü arzulayan, bu qədər gözəl xeyirxah məqsədləri olan mərhəmətli ürəyə sahib Milenasan və həmişə də elə qalmağını arzu edirəm.

Hörmətlə,

Sülhə cəhd edən bir gənc qız

-Gunel